***2020**-ci ilin iyulunda Azərbaycanın şimal-qərb sərhədində baş verən Tovuz döyüşləri qəhrəmanlıq salnaməmizin parlaq səhifəsidir. Keçirilən əməliyyatlar Azərbaycan xalqının milli ruhunun, dövlətin siyasi qətiyyətinin, ordunun iradəsinin güc nümayişidir. Tovuz döyüşləri, həmçinin 44 günlük Vətən müharibəsində əldə edilən Zəfərin işartısı oldu.*

# Qələbəyə aparan birliyin təcəssümü



Tovuz döyüşləri həm regionun hərbi-siyasi konturunu dəyişdi, həm də Azərbaycan Ordusunun döyüş hazırlığına, komanda-strategiya strukturuna və texnoloji imkanlarına dair mühüm siqnallar verdi. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə artilleriyadan istifadə etməklə qəflətən hücuma keçməyə cəhd göstərdilər. Qəhrəman Azərbaycan Ordusunun cavab tədbirləri nəticəsində düşmənə tutarlı zərbələr endirildi. Azğın düşmən ağır itki verərək geri çəkilməyə məcbur edildi. İyulun 13-nə keçən gecə döyüşlər daha da intensivləşdi. Həmin gün Tovuz istiqamətində ağır artilleriya qurğuları yenidən işə düşdü. Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini atəşə tutdu. Artilleriya, minaatan və tankların tətbiqi ilə gecə döyüşləri zamanı bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğusu, avtomobil texnikası və xeyli canlı qüvvəsi məhv edildi.



2016-cı ilin Aprel və 2018-ci ilin Günnüt əməliyyatlarında Ermənistan rəhbərliyinin yaşadığı qorxu yenidən başlarının üstünü almışdı. Bu əks cavab daha dərin və silkələyici şəkildə özünü göstərdi. Tovuzda baş verənlər bir millətin heysiyyatına uzanan əlin cavabsız qalmayacağının isbatı idi. Cəbhədə açılan atəş ilk baxışda səssiz dağların qoynunda itib-batsa da, əslində Azərbaycanın hərb tarixinə daha bir şanlı səhifə yazıldı. Azərbaycan Ordusu bir daha sübut etdi ki, düşmənin gözlənilməz hücumları, xain təxribatları, gizli niyyətləri onun iradəsini sarsıda bilmir. Əksinə, belə anlar ordumuzun gücünün, xalqın ruhundakı qürurun alovlanmasına səbəb olur. Məhz Tovuz döyüşləri zamanı Ermənistan silahlı qüvvələri itkilərin ağırlığı altında sarsıldı, səngərlər boşaldı, əsgərlər silahlarını atıb qaçdılar. Qısa zaman ərzində yüzlərlə yaralı və ölüsünü daşımaqla məşğul olan düşmən nə baş verdiyini belə anlaya bilmədi. Döyüşlər göstərdi ki, bu torpağın hər qarışı Vətən naminə göz qırpmadan şəhid olmağa hazır oğulların qəhrəmanlığı ilə qorunur. Azərbaycan əsgəri bir daha nümayiş etdirdi ki, onun qarşısında duran düşmən nə qədər silahlanmış olursa-olsun, ruhu olmayan bir ordudur. Ermənilərin "dəmir" dediyi xətlər, "keçilməz" hesab etdikləri mövqelər birbir dağıdıldı. Ermənistan rəhbərliyi isə çarəsizlik içində panikaya düşmüşdü. Təcavüzkarın rəsmi dairələri ilk olaraq cəbhədəki faciəvi nəticələri xalqdan gizlətməyə çalışdılar. Baş nazirin təlimatı ilə itkilər ört-basdır edildi, yalan məlumatlar yayılmağa başladı. Əvvəlcə 2 polis və 2 əsgərin yaralandığı deyildi. Amma az sonra həqiqət özü dilə gəldi - yüzlərlə əsgər və zabitin öldürüldüyü və yaralandığı xəbərləri sızmağa başladı. Bu, Ermənistanın artıq illərlə davam edən informasiya manipulyasiyalarının iflasa uğradığı an idi. Onlar eyni köhnə oyuna əl atdılar, "məzlum millət", "təhdid altında olan xalq" maskaları ilə beynəlxalq aləmə səsləndilər. Qeyd edək ki, Tovuz döyüşləri həm də xalqla Prezidentin, Ordunun da birləşməsinin təcəssümü idi. Həmin günlərdə bir yumruğa çevrilən Azərbaycan düşmənə təkcə cəbhədə deyil, informasiya və siyasi meydanda da sarsıdıcı cavab verdi. Döyüşlər Azərbaycanın artıq regionun passiv iştirakçısı yox, prosesləri yönəldən, gündəm müəyyən edən, öz haqlarını qorumaqda tərəddüd etməyən dövlətə çevrildiyini göstərdi.

İyulun 13-nə keçən gecə Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə Ordumuzun mövqelərinə minaatanlardan yenidən atəş açdılar. Düşmənin bu təxribatlarına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görüldü. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edildi. Bölmələrimizin endirdiyi sarsıdıcı zərbələr nəticəsində düşmən xeyli itki verdi.

Elə həmin gün Prezident, Ali Baş Komandan İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. İclasda dövlətimizin başçısı şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyərək artıq Vətən uğrunda canını fəda edən qəhrəman övladlarımızın intiqamının alındığını bildirdi: "Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun yerini göstərəcəyik. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq". Prezident İlham Əliyev bir daha vurğuladı ki, Azərbaycan heç vaxt torpaqlarının işğalı ilə barışmayacaq. Heç bir güc bizi haqq yolumuzdan döndərə bilməz. Ermənistanın çirkin niyyətləri, hərbi təxribatları öz məntiqsizliyi və radikal iradəsizliyi ilə birlikdə onları uçuruma doğru sürükləyir. Ali Baş Komandanın dediyi kimi, bu çirkin siyasət Ermənistanın sonunu yaxınlaşdırdı. Azərbaycan Ordusu isə hərbi cəza tədbirləri ilə düşmənə layiqli cavab verdi. Qısa zaman ərzində düşmənin bir sıra kritik hədəfləri - atəş mövqeləri, radiolokasiya sistemləri, texnika saxlanc məntəqələri, döyüş vasitələri, tabor qərargahları və komanda mərkəzləri dəqiq zərbələrlə məhv edildi. Hərbi infrastruktur yerlə-yeksan edildi. Düşmənin ehtiyat qüvvələri belə müdafiənin dərinliyində darmadağın olundu. Bütün dünya gördü ki, Azərbaycan nəinki sarsılmaz mövqeyə malikdir, eyni zamanda öz təhlükəsizliyini qorumaq üçün bütün resurslara sahibdir. Ordumuzun dəmir iradəsi, xalqımızın birliyi və dövlətimizin siyasi qətiyyəti Ermənistanın təxribatlarını cavabsız qoymadı.

Əfsuslar olsun ki, xain xislətini bir daha göstərən düşmən iyulun 14-də Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoydu. Həmin gün döyüş zamanı müdafiənin ön xəttindəki Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz qəhrəmancasına şəhidlik zirvəsinə ucaldılar. Bu, Silahlı Qüvvələrimizin general və digər yüksəkrütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetməsini dünyaya nümayiş etdirdi. Həmin gün bu istiqamətdə ağır döyüşlər gedib. Qarşı tərəf mülki əhalini və yaşayış məntəqələrimizi də atəşə tutdu.

2020-ci ilin iyul günləri Azərbaycanın yaddaşına həm kədər, həm də qürur dolu xatirələrlə həkk olundu. Səngərlərdə səslənən hər bir atəş xalqın ürəyində qələbəyə inam alovu yandırdı. Tovuz istiqamətində baş verən döyüşlər təkcə sərhəddə deyil, hər bir azərbaycanlının qəlbində də yaşandı. Hər kəs bir yumruq kimi birləşmişdi. Tovuz döyüşləri Aprel zəfərinin davamı, Vətən müharibəsinin xəbərçisi idi. İyulun 14-dən 15-nə keçən gecə Bakının küçələri tarixin axışını dəyişdirən bir mənzərəyə şahidlik etdi. On minlərlə gənc əllərində bayraq, dillərində "Qarabağ Azərbaycandır!" şüarı ilə Azərbaycan Ordusuna dəstək yürüşünə çıxdı. Bu yürüş xalqın orduya verdiyi böyük güvən idi. O gecə vətən üçün döyünən milyonlarla qəlbin səsi göy üzünə yüksəldi. Bundan bir neçə gün sonra isə səfərbərlik xidmətlərinə axın başladı. Minlərlə gənc könüllü ordu sıralarına yazılmaq üçün müraciət etdi.

Tovuz döyüşləri Azərbaycanın müasir hərb tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Bu döyüşlər, eyni zamanda, dünyanın diqqətini bir daha Ermənistanın təxribatçı, işğalçı mahiyyətinə yönəltdi. Cəbhədə baş verənlər Azərbaycan həqiqətlərinin də yayılmasına səbəb oldu. Bu gün də həmin iyul günlərinin izi Azərbaycan tarixində parlayır. Çünki həmin günlər Vətən müharibəsinin ilk addımları idi və həmin addımların səsi bu gün Şuşada əks-səda verir.

**Nurlan ABDALOV,**
**"Respublika".**